


İQTİSADİ İSLAHATLARIN TƏHLİLİ VƏ
KOMMUNİKASİYA MƏRKƏZİ

# İXRAC İCMALI

Mart - 2018

iqtisadiislahat.org
info@ereform.org

**AZEXPORT.AZ**
**Made in Azerbaijan**

# "KEÇƏN İL İQTİSADİ SAHƏDƏ SABİTLƏŞMƏ İLİ OLMUŞDUR, BU İL İSƏ İNKİŞAF İLİDİR"

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin pambıqçılığın inkişafı məsələlərinə dair respublika müşavirəsindəki nitqindən



"Keçən il iqtisadi sahədə sabitləşmə ili olmuşdur, bu il isə inkişaf ilidir. Bu ilin iqtisadi göstəriciləri ürəkaçandır. İki ay ərzində qeyri-neft sənayesi 8 faizdən çox, qeyri-neft sektoru 2,3 faiz, kənd təsərrüfatı 3,4 faiz artmışdır. O cümlədən bitkiçilik 40 faizdən çox artmışdır. Ona görə bu iqtisadi fəallıq əlbəttə ki, özəl sektorda iş yerlərinin yaradılmasına xidmət göstərir. Eyni zamanda, pambıqçılıqda və kənd təsərrüfatının digər sahələrində çox fəal işlər aparılır. Orada da yeni iş yerləri yaradılır.

Artıq bir neçə ildir ki, mənim təşəbbüsümlə dövlət tərəfindən yaradılmış ictimai işlərə vətəndaşlar cəlb olunurlar. Mənə dünən verilən məlumata görə, təkcə Bərdə şəhərində yüzlərlə insan ictimai işlərə cəlb olunub, digər şəhərlərdə də mənzərə təxminən eynidir. Ona görə biz əmək resurslarımızı bilməliyik. Həm mərkəzi, həm də yerli icra orqanları bunun təhlilini aparmalıdırlar. Biz gələcək iqtisadi inkişafımızı, o cümlədən əkin sahələri ilə bağlı planlarımızı, ümumiyyətlə iqtisadi sahə ilə sənaye sahəsi ilə bağlı planlarımızı əmək resurslarımızın düzgün təhlilinin aparılması üzərində qurmalıyıq".

# MÜNDƏRİCAT


1 2018-ci ilin yanvar-ayında qeyri-neft sektoru üzrə 241,7 milyon ABŞ dolları dəyərində ixrac olmuşdur — 3 səh.

2 2018-ci ilin yanvar-fevral aylarında qeyri-neft sektoru üzrə əsas ixracatçı subyektlərinin reytinqi — 9 səh.

3 Azexport.az portalına 2018-ci ilin fevral ayında 37,6 milyon ABŞ dolları məbləğində ixrac sifarişi daxil olmuşdur — 14 səh.

4 "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi sahibkarların xidmətindədir — 21 səh.

5 Kənd Təsərrüfatı Nazirliyi at və at əti ixracı ilə bağlı araşdırma aparmışdır — 24 səh.

1

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ İXRACA DAİR MƏLUMAT

2018-ci ilin yanvar-fevral aylarında qeyri-neft sektoru üzrə 241,7 milyon ABŞ dolları dəyərində ixrac olmuşdur.

Ötən ilin müvafiq dövrü ilə müqayisədə qeyri-neft sektoru üzrə ixrac 37,4 faiz artmışdır.

2018-ci ilin yanvar-fevral ayları ərzində qeyri-neft sektoru üzrə ixrac 241,7 milyon ABŞ dolları təşkil etmişdir. 2017-cı ilin müvafiq dövrü ilə müqayisədə cari ilin yanvar-fevral aylarında qeyri-neft sektoru üzrə ixrac 37,4 faiz artmışdır. Dövlət Statistika Komitəsinin məlumatına əsasən cari ilin ilk 2 ayı ərzində ən çox qeyri-neft məhsullarımız Rusiya Federasiyasına ixrac edilmişdir. Belə ki, yanvar-fevral ayı ərzində Rusiyaya 67,8 milyon, Türkiyəyə 65,4 milyon, İsveçrəyə 25,6 milyon, Gürcüstana 17,4 milyon və Çinə 7,6 milyon ABŞ dolları dəyərində qeyri-neft sektoruna aid mal ixrac olunmuşdur.

2018-ci ilin yanvar-fevral ayları ərzində ixrac olunan qeyri-neft sektoru məhsulları arasında qızıl (sikkə kəsilməsində istifadə olunmayan, digər emal olunmamış formalarda) birinci yerdə qərarlaşmışdır (24,4 milyon ABŞ dolları). Bu siyahıda ikinci yeri elektrik enerjisi (20,3 milyon ABŞ dolları), üçüncü yeri isə xurma (19 milyon ABŞ dolları) tutmuşdur.

Həmçinin yanvar-fevral aylarında xüsusi kütləsi 0,94-dən az olan ilkin formalı polietilenin ixracı 18,5 milyon, qabığı təmizlənmiş meşə fındığının ixracı 15,4 milyon, tomatın (pomidor) ixracı 14,7 milyon, pambıq lifi (daranmaya məruz qalmamış) ixracı 9,9 milyon, alüminium ərintilərindən qalınlığı 0,2 mm-dən çox olan düzbucaqlı plitələrin ixracı 7,4 milyon, almanın ixracı 6,4 milyon, daş kömür qatranının yüksək temperaturlu qovulmanın digər yağlarının ixracı 6,1 milyon, emal olunmamış alüminium ərintilərinin ixracı 6 milyon ABŞ dolları təşkil etmişdir.

Ümumiyyətlə isə yanvar-fevral ayları ərzində meyvə-tərəvəz ixracı 58,4 milyon, plastmassa və onlardan hazırlanan məmulatların ixracı 23,9 milyon, alüminium və ondan hazırlanan məmulatların ixracı 20,7 milyon, elektrik enerjisinin ixracı 20,3 milyon, qara metallar və onlardan hazırlanan məmulatların ixracı 9,7 milyon, kimya sənayesi məhsullarının ixracı 6.6 milyon ABŞ dolları olmuşdur.

Qeyd edək ki, 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 2018-ci ilin yanvar-fevral aylarında elektrik enerjisinin ixracı 5,9 dəfə, meyvə-tərəvəzin ixracı 50,9 faiz, pambıq ipliyi ixracı 43,4 faiz, qara metallar və onlardan

hazırlanan məmulatların ixracı 14,8 faiz, kimya sənayesi məhsullarının ixracı 7,2 faiz artmışdır.

Dövlət Statistika Komitəsinin məlumatına əsasən cari ilin fevral ayında isə qeyri-neft sektoru üzrə ixrac 119 milyon ABŞ dolları təşkil etmişdir. 2018-ci ilin fevral ayında ən çox qeyri-neft sektoruna aid mal Türkiyəyə ixrac edimişdir(42,3 milyon ABŞ dolları). Sonrakı yerlərdə isə Rusiya (31 milyon ABŞ dolları), İsveçrə (7,8 milyon ABŞ dolları), Gürcüstan (6,2 milyon ABŞ dolları) və Belçika (4,1 milyon ABŞ dolları) qərarlaşmışdır.

2018-ci ilin fevral ayında qeyri-neft sektoru üzrə ixracda birinciliyə elektrik enerjisi sahiblənmişdir(17,7 milyon ABŞ dolları). Bu siyahıda ikinci yeri  Xüsusi kütləsi 0,94-dən az olan ilkin formalı polietilen  (8,8 milyon ABŞ dolları), üçüncü yeri isə qızıl (sikkə kəsilməsində istifadə olunmayan, digər emal olunmamış formalarda -19 milyon ABŞ dolları) tutmuşdur.

Cari ilin fevral ayında  tomatın ixracı 6,8 milyon, qabığı təmizlənmiş meşə fındığının ixracı 6,3 milyon, xurmanın ixracı 5,6 milyon, polimerləşmə nəticəsində əmələ gələn ilkin formalı digər maddələrin ixracı 4,1 milyon, emal olunmamış aşqarlanmamış alüminiumun ixracı 3,9 milyon, alüminium ərintilərindən qalınlığı 0,2 mm-dən çox olan düzbucaqlı plitələrin ixracı 3,7 milyon,  pambıq lifinin (daranmaya məruz qalmamış) ixracı 3,4 milyon, almanın ixracı 3,2 ilyon, daş kömür qatranının yüksək temperaturlu qovulmanın digər yağların ixracı 3,1 milyon olmuşdur.

2018-ci ilin yanvar-fevral ayları ərzində ixrac olunan əsas malların siyahısı və əsas ixrac ölkələri barədə daha ətraflı məlumat təqdim olunan infoqrafikalarda verilmişdir.



## 2018-ci ilin fevral ayında qeyri-neft sektoru üzrə 5 əsas ixrac ölkəsi //



## 2018-ci ilin yanvar-fevral aylarında 2017-ci ilin müvafiq dövrünə nisbətən qeyri-neft sektoruna aid bəzi malların ixracının artımı //

| | |
|---|---|
| 5,9 dəfə | Elektrik enerjisi |
| 50,9 % | Meyvə-tərəvəz |
| 43, 4 % | Pambıq iplik |
| 14,8 % | Qara metallar və onlardan hazırlanan məmulatlar |
| 14,2 % | Çay |
| 7,2 % | Kimya sənayesi məhsulları |
| 5,1% | Alüminium və ondan hazırlanan məmulatlar |

## 2018-ci ilin yanvar - fevral aylarında ixrac olunan əsas qeyri-neft mallarının siyahısı (Dəyəri milyon ABŞ dolları ilə) //

| Dəyər | Mal |
|---|---|
| 24,4 | Qızıl |
| 20,3 | Elektrik enerjisi |
| 19 | Xurma, təzə |
| 18,5 | İlkin formalı polietilen |
| 15,4 | Fındıq ləpəsi |
| 14,7 | Tomat |
| 9,9 | Pambıq lifi |
| 7,4 | Alüminium ərintilərindən plitələr |
| 6,4 | Alma |
| 6,1 | Digər yağları və yağ məhsulları |
| 6,1 | Emal olunmamış alüminium ərintiləri |
| 4,5 | Doymamış propen (propilen) |
| 4,3 | Yer və tunelqazan maşınların hissələri |
| 4,1 | Polimerləşmə nəticəsində əmələ gələn ilkin formalı digər maddələr |
| 4 | Nasos-kompressor boruları |
| 4 | Emal olunmamış aşqarlanmamış alüminium |
| 3,2 | Aşqarlanmamış alüminiumdan plitələr |
| 2,7 | Mis və sink əsaslı ərintilərdən çubuqlar |
| 2,4 | Latun |
| 2,4 | Ağ şəkər |

## 2018-ci ilin fevral ayında ixrac olunan əsas qeyri-neft mallarının siyahısı
## (Dəyəri milyon ABŞ dolları ilə)

| Dəyər | Mal |
|---|---|
| 17,7 | Elektrik enerjisi |
| 8,8 | İlkin formalı polietilen |
| 7,2 | Qızıl |
| 6,8 | Tomat |
| 6,3 | Fındıq ləpəsi |
| 5,6 | Xurma, təzə |
| 4,1 | Polimerləşmə nəticəsində əmələ gələn ilkin formalı digər maddələr |
| 3,9 | Emal olunmamış aşqarlanmamış alüminium |
| 3,7 | Alüminium ərintilərindən plitələr |
| 3,4 | Pambıq lifi |
| 3,2 | Alma |
| 3,1 | Digər yağları və yağ məhsulları |
| 2,4 | Latun |
| 2,2 | Aşqarlanmamış alüminiumdan plitələr |
| 2 | Nasos-kompressor boruları |
| 1,9 | Doymamış propen (propilen) |
| 1,9 | Ağ şəkər |
| 1,6 | Emal olunmamış alüminium ərintiləri |
| 1,1 | Tropik və digər meyvələrin şirələri |
| 1 | Pambıq iplik |

# 2

# 2018-Cİ İLİN YANVAR-FEVRAL AYLARINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ ƏSAS İXRACATÇI SUBYEKTLƏRİNİN REYTİNQİ

“İxrac İcmalı” tərəfindən 2018-ci ilin yanvar-fevral aylarında qeyri-neft sektoru üzrə ixrac əməliyyatlarında iştirak edən subyektlərin reytinqi tərtib olunmuşdur. Qeyri-neft sektoru üzrə ixracla bağlı rəsmi statistik rəqəmlərin təhlili nəticəsində hazırlanan reytinqdə qeyri-dövlət ixracatçı subyektlərin siyahısına “Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited Şirkəti”nin Azərbaycan Respublikasındakı nümayəndəliyi başçılıq edir. Həmçinin qeyri-dövlət ixracatçı subyeklərin ilk onluğunda “Aqrodoctor” MMC, “MKT İstehsalat Kommersiya” MMC, “Baku Steel Company” MMC, “Qlaf Drillinq Saplay FZE” şirkətinin Azərbaycan Respublikasındakı Filialı, “CTS-Agro” MMC, Ram Beynəlxalq Nəqliyyat və Ticarət LTD” MMC, “Food export Şəmkir”, “İlham-M” MMC, “Sun Food” MMC təmsil olunurlar.

Qeyri-neft sektoru üzrə ixrac əməliyyatlarında iştirak edən dövlətə məxsus şirkətlərin siyahısında isə 8 şirkət təmsil olunur. Bu siyahıda adı olan və yanvar-fevral aylarında 100 min ABŞ dollarından çox ixrac əməliyyatı həyata keçirən şirkətlər aşağıdakılardır: ARDNŞ-in “Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi”, “Azərenerji” ATSC, “Det-al Alüminium” MMC, “Azergold” QSC, “Azərbaycan Hava Yolları” QSC, “Ərzaq Məhsullarının Tədarükü və Təchizatı” ASC, “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC və “Suraxanı Maşınqayırma Zavodu Törəmə” ASC.

Bu ixracatçıların reytinqi ilə bağlı məlumatla təqdim olunan infoqrafikalardan tanış ola bilərsiniz.

# Qeyri-neft sektoru üzrə ilk onluqda təmsil olunan qeyri-dövlət ixracatçı subyektlərin reytinqi //

"Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited Şirkəti"nin Azərbaycan Respublikasındakı nümayəndəliyi
**18,5 milyon ABŞ dolları**

"Aqrodoctor" MMC
**9,2 milyon ABŞ dolları**

"MKT İstehsalat Kommersiya" MMC
**8,4 milyon ABŞ dolları**

"Baku Steel Company" MMC
**4,9 milyon ABŞ dolları**

"QLAF DRILLINQ SAPLAY FZE" şirkətinin Azərbaycan Respublikasındakı Filialı
**4,5 milyon ABŞ dolları**

"CTS-Agro" MMC
**3,8 milyon ABŞ dolları**

"Ram Beynəlxalq Nəqliyyat və Ticarət LTD" MMC
**3,7 milyon ABŞ dolları**

"Food export Şəmkir" - MMC
**3,3 milyon ABŞ dolları**

"İlham-M" MMC
**3 milyon ABŞ dolları**

"Sun Food" MMC
**3 milyon ABŞ dolları**

## Qeyri-neft sektoru üzrə ilk onluqda təmsil olunan dövlətə məxsus ixracatçı subyektlərin reytinqi //

“Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi”
**34 milyon ABŞ dolları**

"Azərenerji" ATSC
**20,3 milyon ABŞ dolları**

“Det-al Alüminium” MMC
**17,6 milyon ABŞ dolları**

“Azergold” QSC
**6,7 milyon ABŞ dolları**

"Azərbaycan Hava Yolları" QSC
**2,8 milyon ABŞ dolları**

"Ərzaq Məhsullarının Tədarükü və Təchizatı" ASC
**1 milyon ABŞ dolları**

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC
**368,4 min ABŞ dolları**

"Suraxanı Maşınqayırma Zavodu Törəmə" ASC
**129,7 min ABŞ dolları**

2018-ci ilin yanvar-fevral aylarında "Azərkosmos" ASC tərəfindən dünyanın 17 ölkəsinə peyk və telekommunikasiya xidmətləri ixrac edilmişdir. Cari ilin ilk 2 ayında "Azərkosmos" ASC peyk və telekommunikasiya xidmətlərinin ixracından 2,3 milyon ABŞ dolları məbləğində gəlir əldə etmişdir. "Azərkosmos" ASC-nin xidmət ixracından əldə etdiyi gəlir onun ümumi gəlirlərinin 79 faizini təşkil etmişdir.

**"Azərkosmos" ASC** 2018-ci ilin yanvar - fevral aylarında **2,3 milyon** ABŞ dolları məbləğində xidmət ixracı həyata keçirmişdir




**Xİdmət İxracı həyata keçİrİlən ölkələr:**

- Fransa
- BƏƏ
- Almaniya
- Gürcüstan
- Çin
- Misir
- Türkiyə
- Qırğızıstan
- Birləşmiş Krallıq
- Ukrayna
- Rusiya
- Kipr
- CAR
- Tanzaniya
- Livan
- İran
- Polşa

## Azərbaycana gələn xarici vətəndaşların bank kartları vasitəsi ilə apardıqları əməliyyatlar //

CASH RECIEPT

2016-cı il yanvar ayı

**28,2 milyon AZN**

CASH RECIEPT

2017-ci il yanvar ayı

**86,8 milyon AZN**

CASH RECIEPT

2018-ci il yanvar ayı

**99,8 milyon AZN**





Dövlət Statistika Komitəsinin məlumatına əsasən 2018-ci ilin yanvar ayı ərzində Azərbaycana dünyanın 138 ölkəsindən 186,2 min və ya ötən ilin eyni ayı ilə müqayisədə 16,4 faiz çox əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlmişdir. Ölkəmizə gələn xarici vətəndaşların sayında baş verən artım həm də, onların xərcləmələrində özünü büruzə vermişdir. Belə ki, 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 2018-ci ilin yanvar ayında Azərbaycana gələn xarici vətəndaşların bank kartları vasitəsi ilə apardıqları əməliyyatların dəyəri 15 faiz artaraq 99,8 milyon manat təşkil etmişdir.

3

# AZEXPORT.AZ PORTALINA 2018-Cİ İLİN FEVRAL AYINDA 37,6 MİLYON ABŞ DOLLARI MƏBLƏĞİNDƏ İXRAC SİFARİŞİ DAXİL OLMUŞDUR

›› Portala daxil olan ixrac sifarişlərinin ümumi dəyəri isə **594,1 milyon** ABŞ dolları təşkil etmişdir




2018-ci ilin fevral ayı ərzində Azexport.az portalına 37,6 milyon ABŞ dolları məbləğində ixrac sifarişləri daxil olmuşdur. Ümumilikdə isə 2017-ci ilin yanvar ayından 2018-ci ilin 28 fevral tarixinə kimi Azexport.az portalına dünyanın 81 ölkəsindən daxil olan ixrac sifarişlərinin dəyəri 594,1 milyon ABŞ dolları isə təşkil etmişdir.

2018-ci ilin ilk iki ayında portala daxil olan ixrac sifarişlərinin ilk beşliyində Rusiya (17,8 %), ABŞ (7,9%), Türkiyə (5,9%), Ukrayna (5%) və İran (5%) qərarlaşmışdır.

Daxil olan sifarişləri məhsullar üzrə təhlil etdikdə məlum olmuşdur ki, cari ilin fevral ayında ən çox ixrac sifarişi şərab, fındıq ləpəsi, çay, xurma, alma, nar şirəsi, çiyələk, ipək xalça, biyan kökü, zəfəran, göbələk, qənnadi məhsulları, meyvə tamlı süd, şəkər tozu, toyuq yumurtası, kərə yaği, süd məhsulları, tibbi tənzif, tikinti kərpici, yataq dəsti, konservləşdirilmiş ət, buğda unu və s. mallara daxil olmuşdur.

Azexport.az portalına daxil olan ixrac sifarişləri barədə daha dolğun məlumat isə təqdim olunan infoqrafikada verilmişdir.

## 2018-ci ilin fevral ayında Azexport.az portalından ixrac sifarişi alan əsas mallar //

- Şərab
- Fındıq ləpəsi
- Çay
- Xurma
- Alma
- Nar şirəsi
- Çiyələk
- İpək xalça
- Biyan kökü
- Zəfəran
- Göbələk



- Qənnadı məhsulları
- Meyvə tamlı süd
- Şəkər tozu
- Toyuq yumurtası
- Kərə yağı
- Süd məhsulları
- Tibbi tənzif
- Tikinti kərpici
- Yataq dəsti/mebel
- Konservləşdirilmiş ət
- Buğda unu

## 2018-ci ilin yanvar və fevral aylarında Azexport.az portalına daxil olan ixrac sifarişlərinin ölkələr üzrə bölgüsü (%) //

| Ölkə | % | Ölkə | % |
|---|---|---|---|
| Rusiya | 17,8 | Misir | 3,0 |
| ABŞ | 7,9 | İraq | 2,0 |
| Türkiyə | 5,9 | Çin | 2,0 |
| Ukrayna | 5,0 | Polşa | 2,0 |
| İran | 5,0 | Hindistan | 2,0 |
| İngiltərə | 5,0 | Malayziya | 2,0 |
| Səudiyyə Ərəbistanı | 5,0 | Serbiya | 2,0 |
| BƏƏ | 4,0 | Nigeriya | 2,0 |
| Almaniya | 4,0 | Gürcüstan | 1,0 |
| Qazaxıstan | 3,0 | Fransa | 1,0 |



## Azərbaycandan pambıq məhsulları sifariş edən əsas ölkələr






## Azərbaycanın pambıq məhsullarına sifarişlər artmışdır

2017-ci ildə olduğu kimi 2018-ci ildə də Azexport.az portalına Azərbaycanın pambıq məhsulları ilə bağlı sifarişlər daxil olmaqdadır. Ölkəmizdə istehsal olunun pambıq lifinə ən böyük marağı Türkiyə və Rusiya sahibkarları göstərirlər. Bununla yanaşı Çin, Gürcüstan, Özbəkistan, İran, Qazaxıstan, Hindistan, Amerika, Əfqanıstan, Yaponiya, Qırğızıstan, Avstraliya, Türkmənistan, Çexiya, Ukrayna və digər ölkələrdən pambıq ipliyinə pambıq lintinə, pambıq toxumuna, pambıq toxumundan istehsal edilən heyvan yeminə (jımıx), pambıq yağına və tibbi pambıq da sifariş edilir.

Onu da qeyd edək, Azərbaycanda geniş dəyişdirilmiş toxunmlardan istifadə edilmədiyi üçün pambıq yağına və çiyidinə də maraq böyükdür.

## Sifariş olunan əsas pambıq məhsulları

Pambıq lifi, pambıq linti, pambıq iplik, pambıq toxumu, pambıq yağı, tibbi pambıq





# Azexport.az portalı və “GS1 Azerbaijan” yeni mobil tətbiq işə salmışlar

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin Azexport.az portalının dəstəyi ilə yeni mobil tətbiq işə salınmışdır. Mobil tətbiq “GS1 Azerbaijan”ın məlumat bazasında və Azexport.az portalında qeydiyyatda olan məhsulların xüsusiyyətləri və istehsalçıları barədə məlumat almaq imkanı verir.

Xarici bazarlarda ştrixkodlar məhsulların keyfiyyətinin qoruması, təchizat zəncirinin idarə edilməsi və digər e-commersin tətbiqi baxımından əhəmiyyətli rol oynayır. Bu məqsədlə Azexport “GS1 Azərbaycan”-la bir sıra birgə layihələr üzərində işləyir.

“GS1 Azerbaijan” mobil tətbiqi mobil cihaz vasitəsilə məhsulların üzərində yerləşdirilən ştrix-kodları skan edir və baza üzrə axtarış imkanı verir. “GS1 Azerbaijan” bazasında aşkar edilməyən məhsulun saxta olduğunu və ya qeydiyyatdan keçmədiyini ehtimal etmək mümkündür.

Bunun üçün Android və ya İOS tətbiqi yükləyərək məhsulun üzərindəki barkodu cihazın kamerası ilə skan etmək kifayətdir.

Növbəti mərhələdə təqdim ediləcək həll “Made in Azerbaijan” məhsullarını saxtalaşdırmadan tamamilə qorumağa imkan yaradacaqdır. Blokçeyn texnologiyasına əsaslanan həll hər hansı bir məhsulun saxtalaşdırılmasını mümkünsüz edəcəkdir.

Qeyd edək ki, yeni mobil tətbiq “GS1 Azerbaijan”, EBRD-nin maliyyə və Azexport.az portalının texniki dəstəyi ilə hazırlanmışdır.



## Azexport.az portalı Rusiyaya mal ixrac edən sahibkarlar üçün yeni imkan yaratmışdır

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin operatoru olduğu Azexport.az portalı və "Bank VTB - Azərbaycan" ASC arasında əməkdaşlıq haqqında Memorandum imzalanmışdır. Memorandumun məqsədi Azərbaycan ixracatçıları üçün yeni maliyyə məhsullarının hazırlanması, birgə tədbirlərin, konfransların, biznes missiyalarının təşkili, Azexport.az portalında qeydiyyatdan keçmiş potensial ixracatçılar barədə məlumat mübadiləsi, Bank tərəfindən Azərbaycan ixracıtçılarına dəstək üçün yeni maliyyə imkanlarının təqdim edilməsidir.

Məlum olduğu kimi, Azərbaycanın kənd təsərrüfatı məhsulları üçün Rusiya əsas bazarlardan biri kimi qalır. Azərbaycan məhsulları qonşu ölkənin ənənəvi bazarlarında və yarmarkalarında müştərilərə təqdim olunur. Amma araşdırma göstərir ki, ənənəvi bazarlara və yarmarkalara nisbətən market zəncirləri daha çox əlavə dəyər yaradan və etibarlı tərəfdaşdırlar. Məhz Azexport.az portalı ilə "Bank VTB - Azərbaycan" ASC arasında əməkdaşlıq da Azərbaycan məhsullarının Rusiyanın market zəncirləri şəbəkələrində layiqli yerini tutmasına və bu sahədəki maneələrin aradan qaldırılmasına xidmət edir. Qeyd edək ki, hazırda əsas maneələrdən biri Azərbaycan sahibkarının Rusiyaya göndərdiyi məhsulun pulunu gec alması ilə bağlıdır. Bəzən bu vəsaitin ödənilməsi 30-90 gün müddətində reallaşır, ya da daha çox uzanır. Bu da öz növbəsində Rusiyaya fasiləsiz olaraq mal göndərməkdə çətinlik yaradır.

Bu istiqamətdə problemlərin həlli və Azərbaycan ixracatçılarına dəstək olaraq onlara məhsullarını daha yüksək qiymətə satmaq imkanı yaratmaq üçün də Azexport.az portalı "Bank VTB - Azərbaycan" ASC ilə əməkdaşlıq edəcəkdir. Tərəflər Rusiyanın mağaza zəncirlərinə mal göndərmək istəyən ixracatçıların qısa müddət ərzində maliyyələşməsi ilə bağlı mexanizmi hazırlayaraq təqdim edəcəklər. Belə ki, Azərbaycan ixracatçıları Rusiyaya mal göndərdikdə sonra 2-3 gün ərzində həmin malın pulunu Bakıda "Bank VTB - Azərbaycan" ASC-dən əldə edə biləcəklər.

Gələcəkdə bu cür maliyyə alətləri digər ölkələrin bankları ilə, o cümlədən "Deutsche Bank" və "Raiffeisen" bankla həyata keçirilməsi nəzərdə tutulmuşdur.



# Sahibkarlara Sərbəst Satış Sertifikatı verilməsi başlanımışdır

"Azərbaycan Respublikasının diplomatik nümayəndəlikləri və konsulluqları vasitəsilə qeyri-rezidentlərə elektron imza sertifikatının verilməsi Qaydası"nın və www.azexport.az internet portalı haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 12 sentyabr tarixli Fərmanına uyğun olaraq Azərbaycanda İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi (İİTKM) tərəfindən ixracatçılara sərbəst satış sertifikatı verilməyə başlanılmışdır.

İİTKM-nin meneceri Ayxan Qədəşovun verdiyi məlumata görə, artıq "Gazelli Group" MMC və Teymur Əhmədov adına "Aznar" QSC şsərbəst satış sertifikatı üçün müraciət etmişdir. Müvafiq prosedurlar tamamlandıqdan sonra şirkətlərə sertifikatlar təqdim olunacaq.

Məlumat üçün bildirək ki, sərbəst satış sertifikatının ixracatçıların müraciəti əsasında yalnız Azərbaycan Respublikasında istehsal olunan mallara verilir və bu sertifikatın əldə olunması könüllü xarakter daşıyır. Sərbəst satış sertifikatı ixrac olunan malın Azərbaycan Respublikasında sərbəst dövriyyədə olduğunu, aidiyyəti dövlət orqanları və qurumları tərəfindən sertifikatlaşdırıldığını və standartlara cavab verdiyini təsdiqləyən sənəddir. İxracatçılar sərbəst satış sertifikatını elektron formada və ya kağız daşıyıcıda əldə edə bilərlər.



4

# "BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİ SAHİBKARLARIN XİDMƏTİNDƏDİR

"Bir Pəncərə" İxraca Dəstək Mərkəzi Azərbaycan sahibkarlarının ənənəvi və yeni bazarlara çıxarılması imkanlarını artırmasına və "Made in Azerbaijan" brendinin təşviqinə töhfə verməkdədir. Belə ki, 2018-ci il mart ayı ərzində də "Bir Pəncərə" İxraca Dəstək Mərkəzinə müraciət edən sahibkarlar həm ixrac prosedurları barədə müvafiq məlumat, həm də ixrac üçün ehtiyac olan sertifikat və icazələri almışlar. Mart ayı ərzində Azərbaycan sahibkarlarına əsasən qurğuşun külçələrin, daşqıran cihazın, meyvə-tərəvəzin, polad boruların, samovarın, polad pəstahın, politilen və damlama-suvarma borularının, soyuducunun, portland klinkerin, buğda kəpəyin, hidravlik blokun, ilbizin, ilbiz qabığının və ətinin, qara metallardan xarici yivli keçidlərin, filtr və tros təmizləyən aparatın, balığın, sementin, kartof çipsilərinin, kimyəvi məhsulların, diri atların, tikinti texnikasını, avtomatik qapıların, polad məftil və armatur yaymasının və s. məhsulların ixracı üçün lazım olan müvafiq sənədlər təqdim edilmişdir. Sertifikat verilən məhsullar əsasən Rusiya Federasiyasına, Türkiyəyə, Birləşmiş Ərəb Əmirliklərinə, Gürcüstana, Ukraynaya, Böyük Britaniyaya, ABŞ-a, Qazaxıstana, İran İslam Respublikasına, Meksikaya, Almaniyaya, Hindistana, İraqa, İtaliyaya, Yunanıstana, Sinqapura və digər ölkələrə ixrac olunmuşdur.



## Sahibkarlara 3,6 milyon manat məbləğində ixrac təşviqi ödənilmişdir

2018-ci il 16 mart tarixində Bakı Biznes Mərkəzində Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) fəaliyyəti və "Made in Azerbaijan" brendinin təbliği sahəsində görülmüş işlərə dair keçirilən tədbirdə İqtisadiyyat nazirinin müavini Sahil Babayev qeyri-neft sektorunun inkişafı istiqamətində həyata keçirilən islahatlar, ixracatçılara yaradılmış əlverişli şərait, ixracın genişləndirilməsi, xarici ölkələrə təşkil edilən ixrac missiyaları, "Made in Azerbaijan" brendinin xarici ölkələrdə tanıdılması və xarici investisiyaların təşviqi istiqamətində görülən işlər barədə məlumat vermişdir.

AZPROMO-nun rəhbəri Rüfət Məmmədov bildirmişdir ki, 2017-ci ildə İxracatçılar Klubunun 10 iclası keçirilmiş, 160-dan çox şirkətə ixrac üzrə fərdi qaydada xidmətlər göstərilmiş, sahibkarlıq subyektlərinə 2,9 mln. manat məbləğində ixrac təşviqi ödənilmişdir. Ümumilikdə isə, indiyədək bu istiqamətdə sahibkarlara 3,6 mln. manat ödənilmişdir.

Tədbirdə bildirilmişdir ki, 2017-ci il ərzində "Made in Azerbaijan" brendinin xarici ölkələrdə təşviqi məqsədilə İqtisadiyyat Nazirliyinin dəstəyi, AZPROMO-nun təşkilatçılığı ilə Çinə, Birləşmiş Ərəb Əmirliklərinə, Almaniyaya,



Əfqanıstana, Pakistana, Qətərə, Qazaxıstana, Macarıstana, Rusiyaya və Səudiyyə Ərəbistanına ümumilikdə 10 ixrac missiyası təşkil olunmuşdur. Bu ixrac missiyalarında 160-dan çox şirkət iştirak etmiş, missiyalar çərçivəsində bir sıra məhsulların ixracına dair razılaşmalar əldə olunmuş, müqavilələr bağlanılmışdır. Bundan əlavə, "Gulfood 2017" beynəlxalq ərzaq sərgisində, "Prowein 2017" beynəlxalq şərab sərgisində, "Worldfood Moscow" beynəlxalq ərzaq sərgisində, "ANUGA" beynəlxalq ərzaq sərgisində, "Hong Kong International Wine & Spirits Fair 2017" beynəlxalq şərab sərgisində yerli şirkətlərin "Made in Azerbaijan" vahid ölkə stendi ilə iştirakı təmin edilmişdir. 2017-ci ildə vahid ölkə stendi mexanizmi çərçivəsində 19 mln. manatlıq müqavilələr imzalanmış və artıq 6 mln. manatadək məhsul ixrac edilmişdir.

Tədbirdə diqqətə çatdırılmışdır ki, "Azərbaycan şirələri" və "Azərbaycan meyvələri" sahəvi brendlər üzrə reklam çarxları hazırlanaraq Rusiya Federasiyasının "Rossiya 24" federal televiziya kanalında oktyabr-noyabr aylarında yayımlanmışdır.



# Azərbaycan Süd və Süd Məhsulları istehsalçıları və ixracatçıları Assosiasiyası yaradılmışdır

Süd və süd məhsulları istehsalçılarının təşəbbüsü, İqtisadiyyat Nazirliyinin dəstəyi ilə Azərbaycan Süd və Süd Məhsulları İstehsalçıları və İxracatçıları Assosiasiyası təsis edilmişdir.

Assosiasiya süd və süd məhsullarının istehsalı sahəsində sahibkarlığın inkişafına, bu sahədə yeni texnologiyaların tətbiqinə, istehsalın və ixracın artmasına dəstək göstərəcəkdir.

Azərbaycan Süd və Süd Məhsulları İstehsalçıları və İxracatçıları Assosiasiyasının təsis yığıncağında Samir Eyyubov qurumun İdarə Heyətinin sədri seçilmişdir.

Qeyd edək ki, süd və süd məhsullarının istehsalı sahəsində fəaliyyət göstərən hər bir hüquqi və ya fiziki şəxs müvafiq sənədləri təqdim etməklə Azərbaycan Süd və Süd Məhsulları İstehsalçıları və İxracatçıları Assosiasiyasının üzvü ola bilər.









5

# KƏND TƏSƏRRÜFATI NAZİRLİYİ AT VƏ AT ƏTİ İXRACI İLƏ BAĞLI ARAŞDIRMA APARMIŞDIR

Kənd Təsərrüfatı Nazirliyinın icmallaşdırma və statistik təhlil şöbəsi tərəfindən Azərbaycandan at əti ixracı imkanları ilə bağlı araşdırma aparılmışdır. At əti eyni zamanda Fransa, İtaliya, Belçika və Almaniya kimi ölkələr başda olmaqla, müxtəlif Avropa ölkələrində ən çox istifadə olunan ət növlərindən biri hesab edilir. Regionda ixtisaslaşmış qəssabxanalar və ətlik istiqamətdə yetişdirilən at cinsləri mövcuddur. Araşdırmada göstərilir ki, at əti dünyanın bir çox ölkəsində sevilən ərzaq məhsuludur. FAO-nun məlumatına görə 78 ölkədə hər il təqribən 741,0 min ton at və qatır əti istehsal edilir. İslam ölkələri (Orta Asiya istisna olmaqla) və İngilis dilli ölkələr isə at ətini istehlak etməyən ölkələr qrupuna aiddir.

Dünya üzrə hər il təqribən 370 milyon dollar dəyərində at əti idxalı həyata keçirilir.

Dünya üzrə ən böyük idxalatçılar qismində İtaliya, Belçika və Fransa çıxış edir ki, bu ölkələr də cəmi idxalın 50%-dən çoxunu reallaşdırırlar. Qlobal bazarda at ətinin orta idxal qiyməti bir ton üçün təxminən 3800 ABŞ dollarıdır.

Azərbaycanda at (ətlik istiqamət üzrə) ixracı  ilk dəfə olaraq 2016-cı ildə başlanmışdır. Həmin ildə 1155 baş at ixrac olunmuşdur. 2017-ci ildə at ixrac 2016-cı illə müqayisədə 6,6 dəfə artaraq 7619 baş at olmuşdur.

2017-ci ilin göstəricilərinə əsasən Azərbaycandan 1 baş atın (ətlik) orta ixrac-satış qiyməti 148 ABŞ dolları olmuşdur, ötən il müvafiq göstəricisi isə 141 ABŞ dolları olmuşdur. Son iki ildə kəsim məqsədi ilə atlar Azərbaycandan Qazaxıstana ixrac edilmişdir. Bu ölkə hər il təqribən 3-4 min ton at və qatır əti idxal edir. Qazaxıstan həm də, at ətinin istehsal həcminə görə dünyada ikinci yerdədir.

Azərbaycanın ixrac qiymətlərinin cəlb edici olmasını nəzərə alaraq,  at ətinin ən böyük idxalçısı, eyni zamanda istehsalçılarından olan Çin və Rusiya ölkəmiz üçün potensial ixrac bazarları hesab oluna bilər.

At ətini yüksək qiymətlərlə idxal edən Avropa regionu da ölkəmiz üçün potensial ixrac bazarıdır.



## Azərbaycanın at əti üzrə potensial ixrac bazarları

| İdxalatçı ölkələr | İdxalın həcmi ton | İdxalın həcmi min ABŞ dolları |
|---|---|---|
| Rusiya | 11319 | 23603 |
| Çin | 5934 | 12268 |
| Luksemburq | 119 | 1734 |
| Qazaxıstan | 947 | 1704 |
| Slovakiya | 27 | 205 |
| Sloveniya | 10 | 84 |

Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən "İxrac İcmalı" jurnalı 11 yanvar 2018-ci il tarixində N4160 nömrəsi ilə mətbu nəşrlərin reystrinə daxil edilmişdir.



iqtisadiislahat.org
ereforms.org
ecoreform.az

/iqtisadiislahat

Bakı, Yasamal rayonu,
Landau küçəsi 16, AZ 1073
Tel.: (+ 994) 12 521 33 18
info@ereforms.org